**Riyaziyyat müəllimliyi** məktəb, kollec və ali məktəblərdə riyaziyyat fənnindən dərs deyir. Riyaziyyat müəllimləri dərslər aparır, fənn üzrə sinifdən xaric işlə məşğul olur, dərnəklər, fakultativlər təşkil edir və tərbiyəvi işlərlə məşğul olurlar.

Təhsil alan zaman tələbələr riyazi və kompüter modelləşdirilməsini öyrənir, alqoritmləşdirmə metodları, məlumatın ötürülməsi və saxlanılması haqqında ümumi anlayışlar əldə edir. Bundan başqa tələbələr "Analitik həndəsə", "Cəbr", Riyazi analiz" kimi riyazi fənlər üzrə sistemli biliklər qazanır. Həmçinin pedaqoqikanın əsasları, riyaziyyatın tədrisi metodları, psixologiya fənləri də keçilir, sosiologiya, fizika, astronomiya, xarici və ana dili, tarix kimi elmlər dərindən öyrənilir:

"Riyaziyyat müəllimiliyi" ixtisası üzrə ali məktəb diplomu alaraq məktəblərdə, orta ixtisas məktəblərində və ali məktəblərdə müəllim kimi fəaliyyət göstərmək olar. Həmçinin bu ixtisası bitirdikdə mühəndis, riyaziyyatçı və s. kimi fəaliyyət göstərmək olar.